# Azərbaycan mütəfəkkiri və ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun "Atəşkəs və sürgün xatirələri" kitabı çap olunub

"Kitab Klubu" nəşriyyatı tərəfindən Görkəmli Azərbaycan mütəfəkkiri, ictimai-siyasi xadim, yazıçı, pedaqoq, jurnalist Əhməd bəy Ağaoğlunun "Atəşkəs və sürgün xatirələri" əsəri 200 səhifə həcmində, 100 tirajla işıq üzü görüb. "Atəşkəs və sürgün xatirələri" kitabında yer alan xatirələri müəllif 1919-1921-ci illərdə Maltada sürgündə olarkən yazıb. Əsəri Osmanlı türkcəsindən çevirən Dürdanə Ramazanlıdır.




Geniş oxucu auditoriyası üçün nəzərdə tutulub. Ədəbiyyatsevərlər, ədəbiyyatşünas alimlər, tələbələr, bir sözlə, hər kəs üçün nəzərdə tutulan əsər bir çox ictimai-siyasi hadisələrin cərəyan etdiyi dövrdə qələm alınıb. Birinci Dünya müharibəsi, Osmanlı İmperiyası ilə bağlı faktlara söykənən dolğun məlumatlar ilə zəngindir.

Yeri gəlmişkən, qeyd edək ki, bundan öncə 2016-cı ildə "Kitab Klubu" nəşriyyatı tərəfindən "Müasirlərim" seriyasından Xalq şairi, Fərdi Prezident təqaüdçüsü, "Nazim Hikmət" Beynəlxalq Ədəbiyyatı Mükafatı laureatı Zəlimxan Yaqubun "Dünyadan köçən mənəm", 2017-ci ildə isə Xalq şairi, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, şair, dramaturq, ədəbiyyatşünas Bəxtiyar Vahabzanin "Müasirlərim" seriyasından "Axı dünya fırlanır...", 2018-ci ildə isə Xalq şairi, Əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Nəriman Həsənzadənin "Dostlar gözləyir məni", adlı şeirlər və poemalar toplusu kitabı media təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin, poeziya həvəskarlarının, ədəbiyyatsevərlərin diqqətinə çatdırılmışdı.

***Kamran MURQUZOV***

Kredo 2019.- 31 yanvar.- S.14.